**Milli Cavabdehliyin Çərçivəsi**

*Aprel 2005*

Brukinq İnstitutu və Bern Universiteti
Məcburi Köçkünlərə dair Layihə

## GİRİŞ

Məcburi köçkünlər öz ölkələri daxilində qaldığından onlar hüququn müəyyən olunmuş prinsiplərinə uyğun olaraq öz ölkələrinin müdafiəsi və yardımına arxalanmalıdırlar. Hökumətlər bütün hallarda məcburi köçkünlərin müdafiəsi və onlara yardımın təqdim edilməsi üzrə əsas cavabdehliyə malikdir. BMT-nin 1998-ci ildə qəbul edilmiş Məcburi Köçkünlüyə dair Rəhbər Prinsipləri sənədi də məcburi köçkünlərin müdafiəsi üçün əsas məsuliyyəti və cavabdehliyi milli hökumətlərin üzərinə qoyur.

MIlli Cav!bdehliyin Ç□rçivəsi sənədinan əqas eəqs□di hökumətl□rə vz ölkəl□rində m□cburi kbçkühlüK probleminin həlh edilməri v□ öz əhalisiNə nəzərYn öhdəl`kləRini yerinə yetirməsi istiqaiətifdə yard1m göstərməkdən ibar□tdip. SQnədin əcas diqq□ti `ökuLətl□rin göreəli oldUqları bir sıra əsas tədbirlərin təqdim edilməsinə yönəldilmişdir. Eyni zamanda, Çərgivə məcburi köçkünl|k v□ziyyətlərində bir sıra pəsisatların( o aüml□dən milli insan hüqUqla2ı təsisatla`ınıd, regiodal `urueların, beynəlxa,q təşkilatların, dojor və vətəndaş bəmiyyəti təŝkilatlarınıL məcbura köçkünlərin müdafi□si istiqamədində ol!n ö`dəlikləri və rolunu xüstsi mlaraq qeyd edir. Çərçivə səjədi eynh zamanda, beynəlxalq tə^kilatlar, donorlar, regional və mil,i q1rumlar, eləcədə məcburi köçkünlYrin özlərinə milli cavabdehliyin yerinə yetirilməsi səviyyəsini monitorinq etmək və köçkünlərin hüquqlarının səmərəli təmin edilməsi imkanı yaradır.

## MİLLİ CAVABIN FUNDAMENTAL XÜSUSİYYƏTLƏRİ

Milli cavabdehlik öz təyinatına görə bütün vəziyyətləri əhatə etməli və məcburi köçkünlərin ayrı-seçkiliyinə yol verməməlidir. Xüsusi olaraq, məcburi köçkünlüyə görə milli cavabdehlik bir sıra fərqli aspektlərə aiddir:

- ***Bütün səbəblər:*** Milli cavabdehlik bütün mümkün olan səbəblərə görə məcburi köçkün vəziyyətinə düşmüş şəxslərin müdafiəsi və yardımına aid olmalıdır. Başqa sözlə, milli cavabdehlik məcburi köçkünlüyün BMT Rəhbər Prinsiplərində əks olunmuş təyinatı üzrə olan səbəbləri əhatə etməlidir:

*Silahlı münaqişə, geniş yayılmış insan hüquqların pozuntuları, zorakılıq, təbii və texnogen vəziyyətlərin mənfi təsiri nəticəsində öz evini və daimi yaşayış yerini tərk etmək məcburiyyətində qalan şəxslər.*

- Məcburi köçkünlərin ehtiyyacları köçkünlüyün səbəblərindən asılı olaraq fərqləndiyindən, onların hamısının müdafiə və yardım ehtiyyaclarının hökumətlər tərəfindən təmin olunması vacibliyi xüsusilə vurğulanmalıdır. Milli cavabdehlik

məcburi köçkünlərin ayrı seçkilik olmadan məcburi köçkünlərin yardım və dəstək almasını təmin etməlidir.

- ***Bütün qruplar:*** Məcburi köçkünlərin əsas hissəsi qadın və uşaqlardan ibarətdir. Onların xüsusi müdafiə, yardım və reinteqrasiyaya ehtiyyacları vardır. Bundan əlavə, qadın və uşaqlar, xüsusilə də qızlar yardımı öz adlarına almaqda ,eləcə də təhsil və gəlir yaratma imkanlarının əldə edilməsində ayrı seçkiliyə məruz qarlırlar. Milli hökumətlər xüsusi məcburi köçkün qruplarının, o cümlədən ailə başçısı qadın olanlar, valideynini itirmiş uşaqlar, əlillər, yaşlı şəxslərin xüsusi müdafiə və yardım ehtiyyaclarını nəzərə almalıdırlar.
- Məcbur köçkünlük etnik azlıq qruplarının, yerli əhalinin və əhalinin aztəminatlı hissəsinin həyatına qeyri bərabər surətdə təsir edən bir hadisədir. Onlar məcburi köçkün olan zaman təcrid olunur, müdafiə və yardım əldə etmək zamanı öz etnik, dini, irqi xüsusiyyətlərinə görə ayrı seçkiliyə məruz qalırlar ki, bu da onları kövrək vəziyyətdə qoyur. Dil baryerləri olması səbəbindən onlar hətta hakimiyyət orqanları ilə ünsiyyət yaratmaqda çətinliklər çəkirlər. Aborigen qrupların vəziyyətində isə onların xüsusi olaraq torpaqlara bağlılığı məsələsi ortaya gəlir. Milli cavabdehlik bu zaman onlara qarşı hər hansı ayrı seçkiliyə yol verilməməsinə çalışmalı və onların iqtisadi, sosial, siyasi hüquqlarını təmin etməlidir.

- ***Bütün ehtiyyaclar:*** Milli cavabdehlik məcburi köçkünlüyün bütün aspektlərini əhatə etməlidir. Məcburi köçkünlərin ərzaq, təmiz su, sığınacaq, tibbi yardım və digər əsas humanitar yardımlara olan ehtiyyaclarının təmin edilməsi mühüm əhəmiyytə malikdir. Bununla belə, milli cavabdehlik inteqrasiya olunmuş yanaşma, yəni müdafiə və yardım ehtiyyaclarının effektli şəkildə təqdim olunmasından asılıdır. Müdafiə dedikdə, məcburi köçkünlərin sosial, iqtisadi və siyasi hüquqlarının müdafiəsi nəzərdə tutulur.

- ***Bütün fazalar:*** Milli cavabdehlik məcburi köçkünlüyün bütün fazaları müddətində davam etməlidir. Buraya arbitral köçkünlüyün qarşısının alınması, şəxslərin təhlükəsizliyi və rifahına çalışmaq, davamlı həll üzrə şəraitin yaradılması, xüsusilə də könüllü və təhlükəsiz geriqayıtma aiddir. Məcburi köçkünlüyün nə zaman başa çatması barədə müddəalar məcburi köçkün şəxslərin hüquqlarının tam təmin olunmasına dair obyektiv kriteriyalara əsaslanmalıdır.

- ***Bütün müvafiq hökumət və dövlət orqanları:*** Milli səviyyədə olmaq üçün məcburi köçkünlərə yardım mexanizmi hökumətin bütün səviyyələrində həyata keçirilməlidir. Mərkəzdə olan rəsmilər təbii ki, məcburi köçkünlərin müdafiəsi və yardımı üzrə dövlət siyasətinin hazırlanmasında xüsusi rola malikdirlər. Bununla belə, regional və yerli səviyyədə olan rəsmilər məcburi köçkünlərlə birbaşa əlaqədə olduqlarından milli cavabdehliyin yerinə yetirilməsində xüsusi yer tuturlar. Bundan əlavə, milli cavabdehlik hökumətin bütün müvafiq qurumlarının, o cümlədən təhsil, humanitar, insan hüquqları, sığınacaq, səhiyyə, inkişaf və siyasi sahələrdə olan təsisatların birgə fəaliyyətini əhatə etməlidir. Xüsusi olaraq,

hərbçilər və polisin məcburi köçkünlərin fiziki təhlükəsizliyini təmin edilməsində rolu vurğulanmalıdır.

- ***Bütün təsirə məruz qalmış ərazilər:*** Xüsusilə hərbi münaqişə və hökumətin ölkə ərazisinin bütün hissəsinə nəzarət etmədiyi hallarda milyonlarla şəxs məcburi köçkün olaraq ölkənin müxtəlif ərazilərinə səpələnir. Bu ərazilər qeyri rəsmi biləşmələrin nəzarətində olur və məcburi köçkünlər dövlətin təqdim etdiyi müdafiə və yardımdan məhrum olunurlar. Milli cavabdehliyin səmərəli icrası bu şəxslərə də yardımın təmin edilməsini müəyyən edir. Qeyri rəsmi birləşmələri ilə humanitar hüquq və Rəhbər Prinsiplərin müddəalarına uyğun olaraq razılaşdırılaraq, məcburi köçkünlərə humanitar yardımın təqdim edilməsini təşkil etmək vacibdir. Bu məqsədlə, hökumətlər qeyri hökumət təşkilatları, kilsə qrupları, donorlar və BMT-nin təqdim etdiyi yardıma və müdafiəyə şərait yaratmalıdırlar.

## MİLLİ CAVABDEHLİYİN GÖSTƏRİCİLƏRİ

Rəhbər Prinsiplərdə əks olunmuş normativ çərçivə və milli qanunvericilik sistemində mövcud olan dövlətin vətəndaşların müdafiəsi sahəsində normalara əlavə olaraq, məcburi köçkünlərin yardımı və müdafiəsi istiqamətində hökumətlərin görməli olduğu tədbirlərin konkretləşdirilməsinə ehtiyyac vardır. Milli cavabdehliyin bu məqsədlə göstəriciləri müəyyən olunmalıdır ki, bu da öz əksini hökumətlərin təmin etməli olduqları 12 əsas addımda tapmışdır. Burada əsas məqsəd məcburi köçkünlərin hüquqlarının müdafiəsi üzrə milli cavabdehliyin effektli şəkildə icra edilməsindən ibarətdir.

### 1. MƏCBURİ KÖÇKÜNLÜYÜN QARŞISININ ALINMASI

Ilk və ən əsas addım məcburi köçkünlüyün qarşısının alınmasından ibarətdir. Hökumətlər öz ərazilərində məcburi köçkünlüyün qarşısının alınması üçün Rəhbər Prinsiplərdə əks olunmuş (prinsiplər 5-9) məsuliyyətə malikdirlər. Buraya eyni zamanda, məcburi köçkünlüyün təsirinin və həcminin azaldılması aiddir. Məcburi köçkünlük şəraitin tələb olunduğu müddətdən artıq davam etməməlidir.

Xüsusilə, şəxslər arbitral köçkünlükdən müdafiə olunmalıdırlar. Bu məqsədlə, insan hüquqlarının qorunması, beynəlxalq humanitar hüquqa hörmət olunması və digər sahələrdə preventiv strategiyaların hazırlanması və əhalinin müdafiəsi üzrə çevik cavab mexanizmlərinin inkişafı daxildir.

Şəxslərin məcburi köçkün vəziyyətinə düşməsi üzrə hər hansı qərar Prinsip 7-yə uyğun olaraq qanuni olmalıdır və həmin prinsipdə əks olunmuş şərtlərə cavab verməlidir. Hakimiyyət orqanları məcburi köçkünlərin münasib sığınacaqla təmin olunması, məcburi köçkünlərə təhlükəsiz yaşayış, qida, səhiyyə və gigiyena təqdim olunmasına çalışmalıdırlar. Əgər köçkünlük silahlı münaqişə və təbii fəlakət vəziyyətlərindən digər hallarda baş verərsə, o zaman millik hakimiyyət dairələri aşağıdakı tədbirləri görməlidirlər:

- Köçkünlüyün baş verməsi üzrə səlahiyyətli dövlət orqanlarının müvafiq qanuna əsaslanan qərarı vardır;
- Məcburi köçkünlərə köçürülmənin məqsədləri və prosedurları barədə ətraflı məlumat verməк, və kompensasiya ilə təmin olunmanın təşkil edilməsi;
- Köçkünlərin azad və məlumatlı razılığının alınması;
- Təsirə məruz qalmış şəxsləri, xüsusilə də qadınları planlaşdırma və idarəolunma prosesinə çəlb etmək;
- Təsirə məruz qalmış şəxslərə effektli yardım təqdim etmək.

## 2. PROBLEM BARƏDƏ MİLLİ MƏLUMATLILIQ SƏVİYYƏSİNİN ARTIRILMASI

Məcburi köçkünlük baş verən zaman hökumətin öz ərazisində bu problemin mövcud olmasını tanıması və problemin aradan qaldırılması üzrə öz cavabdehliyini vurğulaması effektli milli cavabdehliyin ilkin addımıdır. İctimai bəyanatlar, kütləvi informasiya vasitələrinin istifadəsi, hökumətlər tərəfindən inkişaf strategiyalarının inkişafı məcburi köçkünlüyün tanınması və onun həlli üzrə öhdəliyin tanınması göstəricisidir. Hökumətin Rəhbər Prinsipləri tanıması və ondan istifadəsi məcburi köçkünlərin xüsusi ehtiyyaclarının və hökumətin onların hüquq və ehtiyyaclarını təmin etmək istiqamətində olan öhdəliklərini tanımasının mühüm göstəricilərini təşkil edir.

Məcburi köçkünlüyün tanınması eyni zamanda milli məlumatlılıq səviyyəsinin artırılmasını, problem ətrafında milli razılıq və böhrandan qurtarmaq üçün birgə səylərin həyata keçirilməsini tələb edir. O eyni zamanda, köçkünlərlə milli həmrəyliyin inkişafını da əhatə edir. Bu köçkünlərin bir sıra vəziyyətlərdə əziyyət çəkə biləcəkləri etnik, irqi və ideoloji stiqmada müdafiə üçün mühüm əhəmiyyət daşıyır. Bu stiqmalar məcburi köçkünləri risk altına alır və onları öz ehtiyyaclarını ictimaiyyətləşdirməməyə sövq edir.

Köçkünlük barədə məlumatlılığın artırılması bütün müvafiq hakimiyyət orqanları, hərbi və polis qurumları, və digər təsisatların nümayəndələri arasında seminarların və digər tədbirlərin keçirilməsi ilə gücləndirilə bilər. Bu tipli kampaniyalar vətəndaş cəmiyyət və məcburi köçkünlərin özləri ilə birgə məsləhətləşmələr şəraitində daha səmərəli ola bilər. İctimai məlumat kampaniyalarının əsas komponenti hakimiyyət orqanlarının məcburi köçkünlərin humanitar ehtiyyacları və fiziki təhlükəsizliyi barədə məlumatlandırılmasından ibarət olmalıdır.

## 3. MƏLUMAT TOPLANMASI

Məcburi köçkünlərin sayı, yeri və şəraiti barədə etibarlı məlumatın əldə edilməsi onların hüquqlarını və ehtiyyaclarını təmin etməyə yönəldilmiş səmərəli siyasətin və proqramların hazırlanması üçün vacibdir.

Məlumat cins, yaş və digər əsas göstəriciləri əks etdirməlidiri ki, məcburi köçkünləri xüsusi qruplarının ehtiyyaclarını, o cümlədən qadın, uşaq, yaşlı və əlil şəxslərin

ehtiyyaclarını əks etdirsin. O düşərgələrdə, qohumlarının evlərində və digər yerlərdə məskunlaşmış bütün məcburi köçkünləri əhatə etməlidir. Məcburi köçkünlərin müxtəlif qruplarına, o cümlədən silahlı münaqişə, ümumi yayılmış zorakılıq və insan hüquqları pozulması, eləcə də təbii və texnogen fəlakət nəticəsində köçkün düşmüş şəxslərə diqqət yetirməlidir. Yalnız fövqəladə vəziyyətlərdə olan məcburi köçkünlər deyil, eyni zamanda dondurulumş münaqişə vəziyyətlərində olan köçkünlər barədə də məlumat əldə olunmalıdır. Bu onların dəyişən ehtiyyaclarına diqqət yetirmək məqsədi daşıyır. Silahlı birləşmələr tərəfindən nəzarət edilən ərazilərdə məskunlaşmış məcburi köçkünlər barədə də məlumatın yığılmasına ehtiyyac vardır.

Yadda saxlamaq lazımdır ki, məcburi köçkünlərin barəsində əldə edilmiş məlumat heç bir halda onların təhlükəsizliyi, müdafiəsi və sərbəst hərəkət azadlığına qarşı istifadə edilə bilməz. Xüsusilə, öz vəziyyətlərindən və ya özləri barədə məlumatın yayılmasından ehtiyyat edən məcburi köçkün qruplarına bu aydın şəkildə izah olunmalıdır. Belə ki, o şəxslər şəxsiyyət sənədlərinin əldə olunmasına daha az maraq göstərirlər. Məlumat toplanması məcburi köçkünlərin müdafiəsi və onların problemlərinə davamlı həll yolunun tapılması məqsədilə istifadə olunmalıdır. Yerli qeyri hökumət təşkilatları, tədqiqatçılar və bir sıra beynəlxalq təşkilatlar məcburi köçkünlərin vəziyyəti və şəraiti barədə məlumat əldə edilməsi sahəsində böyük təcrübəyə malikdirlər.

Ölkə ərazisində məcburi köçkünlərə aid məlumatın əldə edilməsi onların sayı, ehtiyyacları və şəraiti barədə daha aydın faktların toplanmasına və gələcəkdə onların ümumi müdafiəsinin səmərəli təşkilinə xidmət etməlidir. Bu səbəbdən də, məlumatın əldə edilməsi proqram məqsədi daşıyır. Məcburi köçkünlərin özləri barədə məlumat toplanmasında iştirak edib etməməsi onların gələcəkdə yardım və müdafiənin alınmasına heç bir təsir göstərə bilməz.

## 4. MƏCBURİ KÖÇKÜNLƏRİN HÜQUQLARI BARƏDƏ TƏLİM

Məcburi köçkünlərin hüquqları barədə hakimiyyət nümayəndələri üçün təlimlərin keçirilməsi məcburi köçkünlərin müdafiəsi və yardımı üzrə cavabdehliyin təmin olunması üçün vacib əhəmiyyət daşıyır. Bu eyni zamanda, hökumətin səmərəli şəkildə öz öhdəliklərini yerinə yetirməsi üçün bacarıq və cavabdehliyini inkişaf etdirmək məqsədi daşıyır. Təlimlər xüsusilə aşağıdakı qruplar üçün təşkil olunmalıdır:

- Milli səviyyədə qərar qəbul edən şəxslər
- Regional və yerli səviyyədə hökumət nümayəndələri, hansı ki, birbaşa olaraq məcburi köçkünlərlə gündəlik ünsiyyət və təmasda olur və köçkünlərə istiqamətləndirilmiş proqramların icrasına görə cavabdehlik daşıyır
- Məcbur köçkünlərin fiziki təhlükəsizliyini təmin etməli olan hərbçi və polislər
- Məcburi köçkünlərin məskunlaşdıqları qəsəbələrdə onların hüquqlarının qorunması və yardımla təmin edilməsinə cavabdeh olan inzibatçıları
- İnsan hüquqları təsisatlarının numayəndə və əməkdaşları
- Qanunvericiliyin inkişaf etdirilməsinə məsul olan parlament nümayəndələri
- Vətəndaş cəmiyyəti nümayəndələri, məcburi köçkünlərin təmsilçiləri

Təlimlər məcburi köçkünlərin hüquqları və hökumətin onların müdafiəsi üzrə olan öhdəliklərini, eləcəd də Rəhbər Prinsipləri, köçkünlüyün bütün fazalarını və davamlı həll yolunu əhatə etməlidir. Hökumətlərin bu tipli təlimləri təşkil etmək istəyi halında, mövcud təlim modullarından istifadə oluna bilər. Əslində bu təlim modulu hökumətlərin istəyi əsasında 1999-cu ildə Norveç Qaçqınlar Şurası və BMT İnsan Hüquqları Komissiyası tərəfindən hazırlanmışdır.

Təlimlərin hökumət təsisatlarının icra etidiyi proqramların effekliyinin ölçülməsi və müxtəlif siyasət seçimlərinin müzakirəsini əhatə etməsi də dəyərli komponent ola bilər. Beynəlxalq Miqrasiya Təşkilatının hazırladığı *Miqrasiyanın İdarəolunması üzrə Rəhbər Kitabça* bu məqsədlə çox dəyərli vasitə ola bilər. Həmin kitabçanın içərisində məcburi köçkünlüyə həsr edilmiş modul vardır.

## 5. MƏCBURİ KÖÇKÜNLƏRİN HÜQUQLARINI NƏZƏRƏ ALAN MİLLİ HÜQUQİ ÇƏRÇİVƏ

Müdafiə hüquqi konsepsiya olduğundan məcburi köçkünlərin hüquqlarını nəzərə alan milli hüquqi çərçivənin inkişaf etdirilməsi milli cavabdehliyin formalaşdırılması məqsədilə vacib elementi təşkil edir.

Bütün dünyada məcburi köçkünlərə dair xüsusi qanunvericilik qəbul etmiş ölkələrin təcrübəsində demək mümkündür ki, bu addım məcburi köçkünlərin hüquqları, ehtiyyacları və hökumətlərin bu istiqamətdə öhdəliklərinin müəyyən edilməsi baxımından uğurlu sayılmalıdır. Bir sıra hallarda, hökumətlər məcburi köçkünlüyün xüsusi mərhələlərinə aid qanunlar qəbul etmişlər, məsələn geriqayıtma, başqa yerdə məskunlaşma və s. Digər hallarda, dövlətlər məcburi köçkünlüyün bütün mərhələlərini əhatə edən ümumi bir qanun qəbul etmişlər.Digər yanaşma isə mövcud qanunvericiliyin Rəhbər Prinsiplərə uyğunluğunu müəyyən etmək və mövcud qanunvericiliyi uyğun olaraq dəyişdirməkdir.

Hər hansı yanaşmanın seçimindən asılı olmayaraq, milli qanunvericilik beynəlxalq standartlar o cümlədən Rəhbər Prinsiplərə uyğun olmalıdır. Hökumətlər BMT qətnamələri vasitəsilə bütün dünya dövlətlərini məcburi köçkünlərin vəziyyətinə dair hər hansı qərar və qanun qəbul edən zaman Rəhbər Prinsiplərin nəzərə alınmasını tövsiyyə etmişlər. Bu çağırış regionlarda səmərəli surətdə nəzərə alınmış və bir sıra qanunvericiliklərdə Rəhbər Prinsiplərin müddəaları əksini tapmışdır.

## 6. MƏCBURİ KÖÇKÜNLÜYƏ DAİR MİLLİ SİYASƏT VƏ YA PLANIN QƏBULU

Məcburi köçkünlüyə dair milli siyasət və ya fəaliyyət planının qəbulu bu sahədə qanunvericiliyin tamamlanmasına aid olan bir tədbirdir. Misal üçün, məcburi köçkünlüyə dair milli siyasət və ya fəaliyyət planı köçkünlük problemlərinin həlli üzrə milli cavabdehliyi ifadə etməli və müxtəlif dövlət orqanları arasında vəzifələrin bölüşdürülməsini əks etdirməlidir.

Rəhbər Prinsipləri çərçivə sənədi kimi istifadə edən zaman, milli siyasət və fəaliyyət planı köçkünlüyün bütün mərhələlərinə aid olmalı, müdafiə və yardımın bütün sahələrini əhatə etməlidir. Xüsusi diqqət arbitral köçürülməyə yönəldilməli və köçürülmənin qarşısının alınması mümkün olmazsa o zaman onun təsirinin minimuma endirilməsinə çalışılmalıdır. Milli siyasən və ya fəaliyyət planı eyni zamanda köçkünlüyün müxtəlif səbəbləri, eləcə də münaqişə və insan hüquqları pozulması, təbii və texnogen vəziyyətləri əks etdirməlidir. Bundan əlavə, bu sənədlər məcburi köçkünlərin xüsusi ehtiyyaclarını, xüsusilə də qadınlar, uşaqlar və yaşlı əhalinin ehtiyyaclarını əhatə etməlidir.

Milli siyasət və ya plan məcburi köçkünlərin nümayəndələri ilə məsləhətləşmələr zamanı xüsusi səmərəli və dəyərli olur. Başa çatdırıldıqdan sonra siyasət və ya plan geniş şəkildə, xüsusilə məcburi köçkünlər arasında onların başa düşdüyü formatda və dildə yayılmalıdır. Bu sənədlərin hazırlanması zamanı hökumət yerli QHT və vətəndaş cəmiyyəti qrupları ilə də yaxından əməkdaşlıq etməlidir. Bu təşkilatlar xüsusilə məcburi köçkünlərin problemlərinə və ehtiyyaclarına bələd olmalı və onların istəklərinin ifadəçisi kimi çıxış etməlidir.

Məcburi köçkünlərə dair milli siyasət və fəaliyyət planının hazırlanması iradəsi hölumətlərin məcburi köçkünlərin müdafiəsi və yardımı istiqamətində milli cavabdehliklərinin tanınması göstəricisidir. BMT-nin müvafiq qətnamələri dünya ölkələrini məcburi köçkünlərə dair milli siyasət və fəaliyyət planlarının hazırlanmasına çağırır.

## 7. MƏCBURİ KÖÇKÜNLƏRƏ DAİR MİLLİ TƏSİSATIN MÖVCUDLUĞU

Məcburi köçkünlərin problemləri ilə məşğul olan xüsusi təsisatın yaradılması problemin diqqət mərkəzində saxlanması beynəlxalq, eləcə də milli qurumlar arasında koordinasiya işinin təşkili üçün vacib əhəmiyyət daşıyır.

Müxtəlif milli qurumların yaradılması seçimi mövcuddur. Bir sıra ölkələrdə, məcburi köçkünlərin müdafiəsi mövcud dövlət orqanının mandatına əlavə edilir ki, bunlar əsasən qaçqınlar və ya sosial rifaha görə cavabdeh olan orqanlar ola bilər. Digər ölkələrdə, qurum yalnız məcburi köçkünlərin problemləri ilə məşğul olur. Bəzi ölkələrdə, hökumət komitəsi və ya işçi qrupu məcburi köçkünlərin müdafiəsi üzrə dövlət orqanlarını mütəmadə olaraq görüşlərə cəlb edir, müzakirələr təşkil edir və beynəlxalq ictimaiyyətlə milli qurumlar arasında koordinasiya işini tənzimləyir.

Hər hansı təsisat formasının seçilməsindən asılı olmayaraq, məcburi köçkünlər üzrə qurum onların müdafiəsi və yardımına görə cavabdeh olmalıdır. Bu qurumların əməkdaşları məcburi köçkünlük məsələləri üzrə xüsusi təlim keçməli, xüsusilə Rəhbər Prinsipləri diqqətlə öyrənməli və milli fəaliyyət çərçivəsində məcburi köçkünlərin hüquqlarını müdafiə etməli və onların yardım ehtiyyaclarını təmin etməlidirlər. Bu dəsək eyni zamanda, məcburi köçkünlərin problemlərinin davamlı həll yollarına geriqayıtma və başqa yerdə məskunlaşmaya çıxışı əhatə etməlidir. İşinin səmərəli təşkili üçün bu qurum əlbəttə ki, kifayət qədər siyasi səlahiyyətə və öz mandatını icra etmək üçün maliyyə resurslarına malik olmalıdır.

QHT-lər və məcburi köçkünlərin maraqlarını ifadə edən vətəndaş cəmiyyətinin digər iştirakçıları ilə əməkdaşlıq məcburi köçkünlük məsələləri üzrə koordinasiyaya məsul olan qurumun işinə yalnız fayda gətirə bilər. Məcburi köçkünlük vəziyyətlərinə milli və beynəlxalq cavab mexanizmləri məcburi köçkünlərə yardım göstərən QHT-lərlə əməkdaşlıq çərçivəsində daha məlumatlı və səmərəli olur. Bu cür əməkdaşlıqlar maddi cəhətdən də sərfəlidir, belə ki, bahalı xarici ekspertlərin dəvət olunması və əlavə xərclərin ödənilməsinə ehtiyyac olmur. Odur ki, yerli QHT-lərin bacarıqlarının inkişafı istiqamətində tədbirlər də həmçinin milli sənədlərdə əks olunmalıdır.

## 8. MİLLİ İNSAN HÜQUQLARI TƏSİSATLARININ ROLU

Milli insan hüquqları təsisatlarının ölkədə insan hüquqlarının müdafiəsi və inkişafə sahəsində rolu danılmazdır. Bu qurumlar hökumətlər tərəfindən rəsmi olaraq tanınır və adətən cəmiyyətdə xüsusi nüfuz və hörmət sahibi olan təqaüdə çıxmış hakimlər və ya insan hüquqları müdafiəçiləri tərəfindən idarə edilir. Məcburi köçkünlük olan ölkələrdə insan hüquqları təsisatlarının rolu məcburi köçkünlərin hüquqlarının müdafiəsi üzrə xüsusi əhəmiyyətli olur. Bu fakt əslində BMT qətnamələri tərəfindən də tanınmışdır.

Bir sıra milli təsisatlar, xüsusilə də inkişaf etməkdə olan ölkələrdə olan qurumların bacarıqları zəif olur. Bu xüsusilə özünü məcburi köçkünlük probleminə nəzərən biruzə verir. Bu səylərə dəstək olaraq, İnsan Hüquqları Təsisatlarının Milli Forumu üzv təsisatların bacarıqlarının qiymətləndirilməsi üzrə xüsusi layihə işləyib hazırlamışdır. Burada məcburi köçkünlərə yardım edilməsi sahəsində təsisatların bacarıqlarının inkişafı üzrə tədbirlər nəzərdə tutulmuşdur.

Məcburi köçkünlük məsələləri üzrə ən yaxşı təcrübə milli insan hüquqları təsisatlarının məcburi köçkünlərin müdafiəsi öhdəliklərinin tanınması hallarından ibarətdir. Milli insan hüquqları təsisatlarının məcburi köçkünlərin hüquqlarının müdafiəsi üzrə görməli olduğu tədbirlərə aşağıdakılar aiddir:

- Məcburi köçkünlərin ölkənin digər vətəndaşları ilə eyni hüquqlardan istifadəsi və onların müdafiəsi və yardımı zamanı hər hansı ayrı seçkiliyə yol verilməməsinə əmin olmaq üçün köçkünlərin vəziyyətlərinin monitorinqi;

- Məcburi köçkünlərin insan hüquqlarının pozulması hallarında hesabatların qeydə alınması və hakimiyyət orqanlarının bu istiqamətdə iş görməsini tələb etmək;

- Məcburi köçkünlük hallarının ilkin xəbərdarlığı və arbitral köçürülmənin qarşısının alınması məqsədilə hakimiyyət orqanlarının adekvat tədbirlər görməsi Rəhbər Prinsiplərə uyğun olaraq icra olunması;

- Hökumətlərə məcburi köçkünlərin hüquqlarına dair məsləhətlər vermək, xüsusilə də milli qanunvericiliyin hazırlanmasında qanunverici orqanlarla əməkdaşlıq. Hökumətlər və müvafiq qurumlarla birlikdə siyasət sənədi və fəaliyyət planlarının hazırlanması;

- Hökumətin məcburi köçkünlərə dair qanunvericiliyinin icrası vəziyyətinə dair monitorinq və hesabatların hazırlanması, beynəlxalq standartlara uyğunluğun qiymətləndirilməsi;

- Dövlət təsisatları, hərbçi və hüquq mühafizə orqanları üçün təhsil və təlim fəaliyyətləri hazırlamaq və xüsusilə də qadınların, uşaqların və digər kövrək qrupların müdafiə məsələlərinə ayrıca olaraq diqqət yetirmək;

- Məcburi köçkünlərin onlara yönəlmiş proqramlar barədə məlumatlılıq səviyyələrinin qaldırılması üzrə maarifçilik tədbirləri görmək və onların qərar qəbulunda iştirakına dəstək olmaq;

- Məcburi köçkünlərin hüquqlarının müdafiəsinə çalışan QHT-lər, vətəndaş cəmiyyəti nümayəndələri və qrupları arasında əlaqələrin gücləndirilməsi;

- Məcburi köçkünlərin fiziki təhlükəsizliyi riski olan ərazilərdə monitorinqin təşkili;

- Köçkün şəxslərin geri qayıtması və başqa yerdə məskunlaşmasının könüllü və təhlükəsiz olması üzrə monitorinq təşkil etmək;

- Məcburi köçkünlərin müdafiəsi üzrə ən yaxşı beynəlxalq təcrübəyə dair məlumat və təcrübənin mübadiləsi məqsədilə digər ölkələrin insan hüquqları təsisatları və müvafiq regional qurumları ilə şəbəkə əlaqələri saxlamaq.

## 9. MƏCBURİ KÖÇKÜNLƏRİN QƏRAR QƏBUL EDİLMƏDƏ İŞTİRAKI

Məcburi köçkünlər öz hökumətlərindən hüquqi müdafiə və humanitar yardımın tələb edilməsi, qəbul olunması hüquqlarına malikdirlər. Bu hüquqdan məcburi köçkünlərin istifadəsi üçün müəyyən olunmuş şəraitin yaradılmasına ehtiyyac vardır.

Bir çox hallarda isə məcburi köçkünlər yalnız qəbul edən tərəf olur və onların siyasi qərarların və fəaliyyət planlarının hazırlanmasında heç bir rolu olmur. Köçkünlərin müdafiəsi və yardımı üzrə onların nümayəndələri ilə məsləhətləşmələrin aparılması da bu işin effektliyini artırmış olur. Hər şeydən öncə məcburi köçkünlər öz problemlərinin necə və hansı yollarla həlli barədə müəyyən mülahizələrə malik olurlar. Odur ki, məcburi köçkünlərin müdafiəsinə yönəldilmiş proqramlar onların təcrübəsi və məlumatlılığına əsaslanan zaman daha güclü olur.

Məcburi köçkünlərin arasından qadınların qərar qəbulu və planlaşdırılmasında iştirakına xüsusi diqqət yetirilməlidir. Ailənin ən əsas dayağı olaraq, qadınlar öz ailələrinin rifahı və təhlükəsizliyi üçün nələrin edilməsi vacibliyini daha yaxşı dərk edirlər. Qadın və qızlarla məsləhətləşmələrin aparılması onların müdafiə ehtiyyaclarının daha yaxşı müəyyən edilməsinə müsbət təsir edə bilər. Qadınların töhfəsi xüsusi olaraq ərzağın bölüşdürülməsi və paylanması, düşərgədəki sığınacaqların yerləşməsi, su və odun

toplanması və ümumilikdə qadın və uşaqların fiziki təhlükəsizliyinə təsir edə bilən məsələlərdə daha effektli olur.

Məcbur köçkünlərlə məsləhətləşmələr köçkünlüyün bütün mərhələlərində baş verməlidir. Xüsusi olaraq, məcburi köçkünlərin yerdəyişməsi təsirə məruz qalan şəxslərlə razılaşdırılmalı və onlara onun səbəbi barəd məlumat verilməlidir. Humanitar yardımın bölüşdürülməsi və planlaşdırılmasında qadınların iştirakı xüsusilə vacibdir. Bu onların cinsi istismara məruz qalmaması və öz ərzaq rasionlarının əldə edilməsi üçün müxtəlif işlərdə istifadənin qarşısının alınması üçündür. Köçürülməyə davamlı həllin tapılmasına gəldikdə, məcburi köçkünlərlə məsləhətləşmələrin və bu prosesin könüllü xarakter daşıması da mühüm əhəmiyyətə malikdir. Əlavə olaraq, məcburi köçkünlərin geri qayıtma və başqa yerdə məskunlaşmanın planlaşdırılmasında iştirakı istiqamətində xüsusi tədbirlər görülməlidir.

Bundan başqa, Rəhbər Prinsiplərə əsasən (prinsip 22) məcburi köçkünlərin ölkənin siyasi həyatında iştirakı hüququ və mexanizmləri də təmin olunmalıdır. Onlar öz həyatlarına təsir edən iqtisadi və siyasi qərarların qəbul edilməsində iştirak edə bilməlidirlər.

## 10. DAVAMLI HƏLL YOLLARI

Məcburi köçkünlüyə görə milli cavabdehlik məcburi köçkünlərin problemlərinə davamlı həll yollarının təmin edilməsi ilə tamamlanır. Bu məcburi köçkünlərin geriqayıtması və ya başqa yerdə məskunlaşması hüququnun həyata keçirilməsi imkanına aid olur.

Ümumilikdə, hökumətlər məcburi köçkünlərin təhlükəsiz və könüllü surətdə geriqayıtmasını və ya ölkənin başqa bir yerində məskunlaşması imkanını təmin etməlidirlər. Təhlükəsizlik davamlı həll yolunun təmin edilməsi və müdafiə hüququnun reallaşması üçün ən əsas elementlərdən biridir. Münaqişə əsaslı köçkünlük zamanı münaqişənin başa çatması və köçkünlüyü yaradan əsasların aradan qaldırılması tələb olunur. Minalarda həmçinin ərazidən təmizlənməlidir. Gerqayıdılan və ya yenidən məskunlaşdırılan ərazilərdə qanunun aliliyi və insan hüquqlarının təmin olunması vacib amillərdən hesab olunur.

Heç bir halda məcburi köçkünlər qeyri könüllü surətdə təhlükəli, sağlamlıq və azadlığı üçün təhlükə olan yerlərə geri qaytarıla bilməzlər (Prinsip 15 d). Mümkün olan zaman, geriqayıtma prosesinin könüllü və təhlükəsiz olması üzrə monitorinqlər təşkil olunmalıdır.

Yerli hakimiyyət orqanları məcburi köçkünlərin əmlak və mülkiyyət hüquqlarının da təmin olunmasına çalışmalıdır. Bu əsasən köçkünlükdən qabaq onların malik olduqları əmlakın qaytarılması və bu mümkün olmadıqda, o zaman əvəzinin kompensasiyasına aiddir. Bu istiqamətdə bir sıra problemlərin olması mümkündür. Belə ki, münaqişə zamanı və ondan sonra torpağın kimə aid olması üzrə müəyyən ziddiyyətlər mövcud olur. Bundan başqa, milli adətlər və ənənələr, eləcə də bəzi qanunvericilik normaları tək qalmış qadınların mülkiyyət hüquqlarına nəzərən onlara qarşı ayrı seçkiliyə yol verirlər. Hökumətlər bu problemləri beynəlxalq standartlara uyğun olaraq həll etməlidirlər.

Geriqayıtması və ya başqa yerdə məskunlaşmasından asılı olmayaraq, hökumətlər məcburi köçkünlərin reinteqrasiyası prosesinə öz köməkliyini göstərməlidir. Əslində, köçkünlərin birbaşa yardımlardan asılılığının minimuma endirilməsi köçkünlüyün ilkin mərhələsindən başlayaraq baş verməlidir. Köçkünlüyün başa çatması qərarı arbitral olaraq verilməməlidir, o məcburi köçkünlərin xüsusi ehtiyyaclarını və hüquqlarını nəzərə almalıdır. Qadınların rekonstruksiya və bərpa proqramlarında bərabər iştirakına şərait yaradılmalıdır. Köçkünlərin geriqayıtması zamanı onlara qarşı ayrı-seçkiliyin aparılmasına imkan verilməməlidir.

**11. ADEKVAT RESURSLAR**

Məcburi Köçkünlərə dair siyasət və fəaliyyət planlarının hazırlanması, eləcə də onların zəruri yardımla (eləcə də ərzaq yardımı, sığınacaq, tibbi yardım, təhsil və reqinterasiya dəstəyi) təmin olunması müəyyən insani və material resursların ayrılmasını tələb edir. Milli cavabdehlik o səbəbdən də məcburi köçkünlərin ehtiyyaclarının ünvanlanması və hüquqlarının müdafiəsini əhatə edir. Bir sıra ölkələr məcburi köçkünlərə yardım üzrə proqramlar çərçivəsində milli büdcədən müəyyən ayırmalar etmişlər. Hökumətlər eyni zamanda bir sıra hallarda "Məcburi köçkünlər üçün fondlar" da yaradır və neft, eləcəd də digər sahədən gələn gəlirin bir hissəsini oraya yönəldir.

Bu o demək deyil ki, hökumətlər məcburi köçkünlərin maliyyə dəstəklənməsində yeganə iştirakçı olmalıdırlar. Əslində, hökumətlərin məcburi köçkünlük probleminin öhdəsindən təkbaşına gələ bilmədikləri hallarda beynəlxalq dəstəyə müraciət etmək hüququ vardır. Hətta əgər hökumətlər maliyyə cəhətdən məcburi köçkünlər üçün nəzərdə tutulmuş proqramları təmin edə bilsə də, müəyyən strategiya və planların hazırlanmasında adətən beynəlxalq dəstəyə ehtiyyac böyük olur.

**12. BEYNƏLXALQ VƏ REGİONAL TƏSİSATLARLA ƏMƏKDAŞLIQ**

Hökumətlər məcburi köçkünlərin təhlükəsizliyi və rifahını tam təmin edə bilmədiyi hallarda öz suverenliyi çərçivəsində digər beynəlxalq təşkilatları və qurumları bu öz köçkün əhalisinin müdafiəsi və yardımı işinə cəlb və dəvət edə bilər. Milli cavabdehliyin digər göstəricisi beynəlxalq təşkilatlarla əməkdaşlıq və onların öz proqramlarını həyata keçirməsi üçün adekvat şəraitin yaradılmasından ibarətdir.

Əslində, Rəhbər Prinsiplər milli hökumətləri çevik və maneəsiz surətdə beynəlxalq təşkilatların işinə şərait yaradılmasını tövsiyyə edir. Beynəlxalq təşkilatlar öz mandatları çərçivəsində öz yardımlarını təklif edə bilmələrinə baxmayaraq, bu ölkənin daxili işlərinə qarışmaq kimi qiymətləndirilməməlidir.

BMT-nin məcburi köçkünlərin hüquqları üzrə Xüsusi Nümayəndənin ölkəyə səfərə dəvət olunması ölkənin beynəlxalq ictimaiyyətlə əməkdaşlıq etməsinin göstəricisidir. Bu cür səfərlər vasitəsilə Xüsusi Nümayəndə hökumət və dövlət başçıları ilə dialoqlar aparır və məcburi köçkünlərin problemlərini müzakirə edirlər.

Regional və beynəlxalq təşkilatlar əməkdaş olaraq qəbul edilməlidir və onların yardımı milli cavabdehliyin artırılmasına dəstək olaraq başa düşülməlidir. Aşağıdakı metodlarla beynəlxalq əməkdaşlığın qurulmasını təmin etmək olar:

- Məlumatın yığılması, qeydiyyat, milli qanunvericiliyin və məcburi köçkünlərə dair siyasət sənədlərinin inkişafı, əmlakın kompensasiyası və restitusiyası;
- Rəhbər Prinsiplər və digər köçkünlük məsələləri üzrə təlimlərin təşkili;
- Məcburi köçkünlərin vəziyyətlərinin öyrənilməsi məqsədilə səfərlərin təşkili və regional və beynəlxalq qurumların işinin təkmilləşdirilməsinə dair tövsiyyələrin verilməsi;
- Hakimiyyət orqanlarının nəzərinə məcburi köçkünlüyün qabaqlanması məqsədilə məlumatların təqdim edilməsi və milli cavab mexanizmlərində hökumətə dəstək;
- Məcburi köçkün düşərgələri daxil olmaqla, ölkədə məcburi köçkünlərin vəziyyətinin monitorinqinin təşkili, xüsusi olaraq köçkünlərin fiziki təhlükəsizlik, cinsi və digər istismar, uşaqların məcburi orduya cəlb olunması məsələlərinə nəzarət;
- Məcburi köçkünlərin geriqayıtması və başqa yerdə məskunlaşmasını monitorinq etmək, geriqayıtmanın təhlükəsiz və könüllü olmasına əmin olmaq;
- Məcburi köçkün assosasiyalarının, məsələn qadın və s. yaradılması və öz hüquqlarının müdafiəsi istiqamətində onlara dəstək;
- Məcburi köçkünlər, QHT-lər və hökumətlər arasında dialoqun asanlaşdırılması;
- Dövlət nəzarətində olmayan ərazilərdə məcburi köçkünlərə yardımın təqdim edilməsi və onların müdafiəsinin təşkili;
- Hökumətlərə məcburi köçkünlərə dair milli cavabdehliklərinin təmin olunması üzrə texniki yardımın göstərilməsi.

Milli cavabdehliyin bir hissəsi olaraq, hökumətin bacarığı və potensialı kifayət etmədiyi hallarda beynəlxalq təşkilatlarla əməkdaşlıq kimi tələbat mövcuddur.

## YEKUN

Məcburi köçkünlüyün ümumbəşəri böhranı böyük çətinliklər törədir, belə ki, problem kifayət qədər mürəkkəb və əhatəlidir. Bununla belə, başlanğıc nöqtəsi aydındır: məcburi köçkünlərin müdafiəsi və yardım ilk növbədə hökumətlərin məsuliyyəti və cavabdehliyinə aiddir. Məcburi köçkünlərin hüquqları və hökumətlərin öhdəlikləri Rəhbər Prinsiplər adlı sənəddə öz əksini tapmışdır ki, bu sənəd arıtq beynəlxalq tanınma səviyyəsinə çatmışdır.